Dünyada onu iki ayaq üstə gəzdirən Allah, onu Qiyamət günü üzü üstə gəzdirməyə qadir deyilmi?

Qatadədən (Allah ona rəhmət etsin) belə dediyi rəvayət edilmişdir: Ənəs bin Məlik (Allah ondan razı olsun) bizə danışdı ki, bir kişi Peyğmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Ey Allahın nəbisi, kafir üzü üstə necə həşr ediləcək? Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Dünyada onu iki ayaq üstə gəzdirən Allah, onu Qiyamət günü üzü üstə gəzdirməyə qadir deyilmi?" Qatədə dedi: Rəbbimizin izzətinə and olsun ki, elədir.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşulur ki, kafir Qiyamət günü üzü üstə necə həşr ediləcək? Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) deyir ki, dünyada onu iki ayaq üstə gəzdirən Allah, onu Qiyamət günü üzü üstə gəzdirməyə qadir deyilmi?! Allah hər şeyə qadirdir.

http://www.sunnah.global/hadeeth/az/show/65068